# HEYDƏR ƏLİYEV VƏ MUSİQİ MƏDƏNİYYƏTİ

*Xalqımızın taleyinə düşən dahi şəxsiyyətlər onun tarixinə yeni-yeni səhifələr yazmaqla Azərbaycanımızın adını yüksək zirvələrə qaldırıb və özləri də əbədiyaşarlıq qazanıblar. Belə əbədiyaşar və dahi şəxsiyyətlərdən biri də ümummilli liderimiz Heydər Əliyevdir.*



O, xalqın xilaskarı, müstəqil Azərbaycan dövlətinin fədakar qurucusu, öz xalqını və dövlətini dünyanın qabaqcıl ölkələri ilə bir məcraya gətirə bilən, Azərbaycanın bayrağını ən müqtədir ölkələrin bayraqları ilə bir sırada dalğalandırmağa qadir olan, yüksək məfkurəli yenilməz bir siyasi xadim idi. Onun güclü siyasi əqidəsi, zəngin elmi bilikləri demək olar ki, bütün sahələri ehtiva edirdi. Təbii ki, tarixdə belə insanlar az-az olub və onlar ensiklopedik biliyə malikdirlər. Heydər Əliyev də məhz belə seçilən şəxsiyyətlərdəndir. Onun xalqımızın rifahı üçün göstərdiyi misilsiz xidmətlər Azərbaycan tarixində silinməz izlər qoyub. Bu mənada xalqımızın mədəniyyətinin inkişaf mərhələlərinin əsas təmayülləri də məhz Heydər Əliyevin adı ilə bağlıdır. Milli-mənəvi sərvətlərimizin qorunması, inkişaf etdirilməsi, elm və incəsənət xadimlərinə göstərilən xüsusi qayğı və diqqət, elmin, incəsənətin müxtəlif sahələrinə ciddi münasibət, bu sahələrlə bağlı dəyərli fikirlər söyləmək, xüsusi qərar və sərəncamlar vermək və s. Heydər Əliyevin öz xalqına və dövlətinə göstərdiyi misilsiz xidmətlərinin bariz nümunəsidir.

Təbii ki, mədəniyyətdən danışarkən onun mühüm bir qolu olan musiqi incəsənətini də xüsusi qeyd etməliyik. Bu sahəyə Heydər Əliyevin ciddi münasibəti musiqi tariximizin böyük bir şaxəsini təşkil edir. Bu yerdə Heydər Əliyevin musiqi sənəti haqqında söylədiyi fikirlərdən bəzi nümunələrə nəzər salaq:

**"Mədəniyyət, musiqi xalqımızın ən dəyərli sərvətlərindən biridir. Mədəniyyət hər bir xalqı dünyada daha da çox tanıdan, onu təbliğ edən vasitələrdən biridir. Biz isə xoşbəxtik ki, xalqımızın belə zəngin mədəniyyəti, musiqisi, incəsənəti var və bunlar həm xalqımızın özünə mənəvi qida verir, həm də onu dünya xalqları içərisində fərqləndirir, tanıdır, başını ucaldır".**

**"Opera sənəti, klassik musiqi həm xüsusi istedad tələb edir, həm xüsusi səs tələb edir, həm də o səsin hazırlanmasını tələb edir".**

**"Koroğlu" operası əzəmətli bir əsərdir və bizim opera sənətində ən yüksək zirvədə duran bir əsərdir".**

Təbii ki, bu fikirlərin hər biri yüksək peşəkarlıqla söylənilən əsl mütəxəssis deyiminin ifadəsidir. Ümumiyyətlə, Heydər Əliyev elmin, incəsənətin demək olar ki, bütün sahələrinə dərindən bələd olduğu üçün hər bir sahənin peşəkarı kimi çıxış edərdi. Çünki o, ensiklopedik biliyə malik nadir şəxsiyyətlərdən idi.

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə bütün sahələrə olduğu kimi, musiqi sənətinə də xüsusi qayğı və diqqət ayırıb. Onun milli və professional musiqinin inkişafına dair imzaladığı sərəncamlar, musiqiçilərin həyat və yaradıcılığı ilə yaxından maraqlanması, onlara göstərdiyi xüsusi qayğı müxtəlif istiqamətlərdə öz əksini tapıb. Belə ki, musiqiçilərin fəxri adlar, orden və medallarla təltif olunması, Prezidentin fərdi təqaüdü ilə təsis edilməsi, yubileylərinin keçirilməsi, həyat şəraitlərinin yaxşılaşması üçün lazımi tədbirlərin görülməsi onlarda xüsusi ruh yüksəkliyi aşılayaraq yaradıcılıq ideyalarını daha da gücləndirib. Dünyasını dəyişən sənətkarların da irsini yaşatmaq üçün onların yubiley və xatirə gecələrinin keçirilməsi, ev-muzeylərinin yaradılması, adlarına küçə və mədəniyyət ocaqlarının verilməsi və bu kimi məsələlər daim Heydər Əliyevin diqqət mərkəzində olub. Bu dahi şəxsiyyətin musiqiçilərə göstərdiyi qayğı və diqqət musiqi tariximizə yeni-yeni əsərlər bəxş edib. Çünki o, öz tövsiyələri ilə də bəstəkarlarımıza, ifaçı və musiqişünaslara düzgün istiqamət verib. Bu mənada Heydər Əliyevin 1979-cu ildə Azərbaycan Bəstəkarlar İttifaqının V Qurultayında etdiyi məruzənin nəşri hazırda da bəstəkarlarımızın masaüstü kitabıdır.

1979-cu il oktyabrın 1-də bəstəkarlarla Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində keçirilmiş görüşdə Heydər Əliyev geniş məruzə ilə çıxış edərək onlara musiqinin aktual problemlərindən söhbət açmışdır. O, musiqi janrlarının nə səviyyədə olduğunu, onları hansı yollarla inkişaf etdirməyi, bəstəkarların əsas vəzifələrinin, onların qarşısında duran problemlərin və bu kimi vacib məsələlərin əhəmiyyətindən danışmışdı. Doğrudan da dahilər uzaqgörən olurlar. Vaxtilə Heydər Əliyevin haqqında söhbət açdığı bəzi məsələlər elə bu günümüzün də aktual problemlərinə çevrilib. Görünür tarix təkrarlanır ifadəsi də bu yerdə öz təsdiqini tapır. Elə Heydər Əliyevin tariximiz üçün dəyərli və önəmli olan zəngin fəaliyyət yolunu möhtərəm Prezidentimiz İlham Əliyev layiqincə davam etdirməklə "İnkişaf məqsədimizdir" şüarı ilə yeni bir tarix yaradır. Təbii ki, bunun da kökündə Heydər Əliyevin əbədi xidmətləri dayanır. Odur ki, müstəqil Azərbaycan möhkəm özüllər üzərində inkişaf edir.

"Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Ümummilli liderimiz Heydər Əliyevə məxsus olan bu və ya buna bənzər qiymətli fikirləri onun özünə də şamil etmək olar. Çünki bu dahi şəxsiyyətin həyat və fəaliyyəti də xalqımızın milli-mənəvi sərvətidir. Bu mənada Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi dahi şəxsiyyətin həyat və fəaliyyətinin təbliği və tədqiqi istiqamətində mühüm əhəmiyyətə malikdir. Əminik ki, bu sərəncamdan irəli gələrək elm və incəsənət xadimləri Heydər Əliyevin müxtəlif fəaliyyət istiqamətlərini əks etdirən tədqiqat işləri, yeni-yeni əsərlərin meydana gəlməsinə səy göstərərək elmimizə, mədəniyyətimizə dəyərli töhfələr verəcəklər. Bu məqsədlə elm, mədəniyyət və təhsil ocaqlarında keçirilən silsilə tədbirlər Heydər Əliyev irsinin ictimaiyyətdə geniş təbliği üçün də çox əhəmiyyətlidir.

**Səadət TƏHMİRAZQIZI,**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru,**
**Əməkdar mədəniyyət işçisi.**